Bülleten № 01 / yanvar 2013

Elektron Hökumət Portalı

your gateway to all public services

www.e-gov.az

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin
Məlumat Hesablama Mərkəzi

YANVAR 2013

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə




ISO 14001 SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## "Elektron hökumət"

Son illər inkişaf etmiş ölkələrdə demokratiyanı daha da inkişaf etdirən amillərdən biri "Elektron hökumət"in (ingilis dilində e-Government) formalaşdırılması hesab edilir.

"Elektron hökumət" - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsininə şərait yaradır.

Yaradılan yeni imkanların əsas məqsədi xidmətlərin göstərilməsi üçün dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətin artırılması, vətəndaşların xidmətlərdən məmunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir. Beynəlxalq təcrübəyə əsasən vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün "bir pəncərə" prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi "elektron hökumət" portal tətbiq edilir.

Ölkəmizdə "elektron hökumət"in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ hüquqi aktlarla fəaliyyət üçün hüquqi baza yaradılmışdır.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu sahədə görlən işlərin əlaqələndiricisi olaraq "elektron hökumət"in formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərir və müvafiq infrastrukturun yaradılması üzrə fəaliyyət həyata keçirir. Artıq electron imzaların istifadəsi üçün Milli Sertifikasiya Xidmətləri Mərkəzi yaradılmışdır, dövlət qurumlarının informasiya sistemləri arasında informasiya mübadiləsini təmin edən infrastruktur qurulmuşdur, "Elektron hökumət" portal hazırlanaraq istifadəyə verilmişdir. Bütün dövlət qurumları bunlardan bəhrələnərək vətəndaşlara elektron xidmətlərin göstərilməsini təmin edə bilirlər.

### "Elektron hökumət"in əsas fəaliyyət prinsipləri:

- Azərbaycan Respublikasının mövcud qanunvericiliyin tələblərinə riayət edilməsi;
- İnformasiyalaşdırma sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dövlət və milli maraqların qorunması;
- İstifadəçilərə təqdim olunan məlumatların tamlığının, həqiqiliyinin, aktuallığının, təhlükəsizliyinin, mühafizəsinin sadə və operativ şəkildə əldə edilməsi imkanlarının təmin olunması;
- Dövlət qurumları arasında səlahiyyət və məsuliyyət bölgüsü.

### "Elektron hökumət"in əhəmiyyəti:

- Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə həyata keçirilən fəaliyyətin səviyyəsinin yüksəldilməsi və onlardan istifadə imkanlarının sadələşdirilməsi;
- Dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının işinin səmərəliyinin artırılması və təqdim olunan elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsi;
- İstifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılması və yerinə yetrilmə prosedurlarının sadələşdirilməsi;
- Elektron xidmətlər vasitəsilə istifadəçilərə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının, etibarlılığının və sərbəst əldə olunmasının təmin edilməsi;
- İstifadəçinin sorğusuna əsasən məlumatların axtarılmasına və əldə edilməsinə sərf olunan vaxtın maksimum azaldılması;
- İstifadəçinin yerləşdiyi coğrafi məkandan asılı olmayaraq ölkənin bütün ərazisində təqdim olunan elektron xidmətlərdən istifadənin mümkünlüyü.

"Elektron hökumət" virtual məkanın, müasir texnologiyaların imkanlarından, dövlət orqanlarında informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə edərək ölkə vətəndaşlarına göstərilən xidmətlərin keyfiyyətcə yeni formada təqdim edilməsinə xidmət edir.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# *"Elektron hökumət" portalı*

www.e-gov.az

## Ümumi quruluş




Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 oktyabr 2012-ci il tarixli 235 nömrəli qərarı ilə təsdiq olunmuş e-xidmətlər üzrə hal hazırda "Elektron Hökumət" portalında yerləşdirilmə barədə məlumat

| | |
|---|---|
| Təsdiq olunmus xidmətlərin sayı | 417 |
| Bunlardan portala inteqrasiya olunmuslar | 109 |
| Portalda olan xidmətlərin sayı | 187 |
| Dövlət orqanlarının saytlarında olan xidmətlər | 393 |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# "Elektron Hökumət" (www.e-gov.az) portalında yerləşdirilmiş xidmətlərin qısa təhlili




Portalda 30 dövlət qurumu tərəfindən 179 elektron xidmət istifadəçilərə təqdim edilmişdir. Hər bir dövlət qurumu elektron xidmətlərini "bir pəncərə" prinsipi əsasında istifadəçilərə Portal vasitəsilə təqdim edir, məlumatların keyfiyyətinə, tamlığına və düzgünlüyünə qurumlar cavabdehdirlər.

Qeyd etmək lazımdır ki, vətəndaşlara bu cür xidmətlərin göstərilməsi dünya təcrübəsində dövlət idarəçiliyində bir innovasiya kimi qəbul edilir. Vətəndaş istənilən dövlət qurumuna müraciət edib, ona aid olan lazımi məlumatı qanun çərçivəsində əldə edə bilər.

Portal vasitəsilə dövlət idarəçiliyində keyfiyyətli elektron xidmətlərin göstərilməsi vətəndaşların həmin xidmətlərdən aktiv istifadəsinə imkan yaradır. Bunun üçün təqdim olunan e-xidmətlərin interaktiv olması vacibdir. Məsələn, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən təqdim olunan bütün e-xidmətlər interaktivdir və istifadəçi tərəfindən çox rahat qəbul edilir. Vətəndaşlar bu qurum tərəfindən təqdim olunan istənilən e-xidmətə daxil olub lazım olan məlumatları əldə edə bilirlər. Xidmətlər elə təqdim edilir ki, istifadəçi ilə sistem arasında dialoq yaranır. Vətəndaş tərəfindən səhv məlumat daxil edildikdə belə, e-xidmət istifadəçi üçün səhv sorğu şərtlərini düzəltmək imkanını yaradır. Alınan nəticəni isə vətəndaş öz kompüterində yadda saxlaya və istənilən vaxt həmin məlumatı çap edə bilər.

Digər dövlət qurumları: Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Daxili İşlər Nazirliyi, "AzərEnerji" ASC" və s. tərəfindən istifadəçilərə təqdim olunan e-xidmətlər interaktiv rejimdə işləyirlər. Lakin, bir sıra qurumlar tərəfindən təqdim olunan bəzi e-xidmətlərin interaktiv rejimdə təşkil edilməsinə baxmayaraq, xidmətlər üzrə son nəticəni əldə etmək mümkün olmur.

Hal-hazırda dövlət qurumları tərəfindən təqdim olunan e-xidmətlərin Nazirlər Kabinetinin 191 N-li Qərarı ilə təsdiq edilmiş siyahıya uyğun təşkili davam edir.

"Elektron hökumət" Portalı bizim cəmiyyətdə yenilikdir və bir çox dövlət qurumları tərəfindən təqdim olunan e-xidmətlər ilkin tətbiq mərhələsindədirlər. Hər bir dövlət qurumunda onların tam tətbiq edilməsi, daha cəlbedici formada yaradılması istiqamətində işlər aparılır. Yeni e-xidmətlərin həyata keçirilməsi və vətəndaşlara təqdim edilməsi əhali arasında (cəmiyətdə) dövlət qurumunun nüfuzunu artıran amillərdəndir.

Dövlət qurumları və yerli icra hakimiyyət orqanları tərəfindən idarəetmə üsullarının keyfiyyətinin artırılması, dövlət sektoru tərəfindən yeni informasiya və komunikasiya texnologiyalarının tədbiq edilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## 01.12.2012 - 25.12.2012-ci il tarixinə "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan elektron xidmətlərin siyahısı:

| № | Qurumun adı | Xidmətin adı | Sayı |
|---|---|---|---|
| 1 | Ədliyyə Nazirliyi | Adın mənası | 672 |
| 2 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | Cari danışıqlar üzrə borc (PİN-ə görə) | 613 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | Sığortaolunanlar tərəfindən məlumatların əldə edilməsi | 600 |
| 4 | Daxili İşlər Nazirliyi | PİN-ə görə fərdi məlumatların axtarışı | 427 |
| 5 | Təhsil Nazirliyi | Diplom haqqında məlumatlar | 356 |
| 6 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | Telefon üzrə ətraflı məlumat | 316 |
| 7 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | Qəbzlər üzrə borc (PİN-ə görə) | 297 |
| 8 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | ADSL-ə qoşulma/imtina | 274 |
| 9 | Dövlət Sosial Müdafiə Fondu | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi | 268 |

www.e-gov.az



Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# 25.12.2012-ci il tarixinə qədər Dövlət Hakimiyyəti orqanları tərəfindən Milli Sertifikat Xidmətləri Mərkəzinə edilən müraciətlərin və onlara verilən sertifikatların sayı haqqında

## STATİSTİK MƏLUMAT

| № | Dövlət hakimiyyəti orqanının adı | Verilən sertifikatların sayı | Müraciət edilib və Müqavilə bağlanıb | Müraciət edilib və Müqavilə bağlanıb lakin sertifikat verilməyib (ödəniş olma-yıb və ya tələb edilən sənəd çatışmır) | Müraciət edilib və Müqavilə bağlanmayıb | Reyestrə daxil olmaq üçün müraciət olunub | Reyestrə daxil olmaq üçün verilib |
|---|---|---|---|---|---|---|---|
| 1 | Nazirlər Kabineti | | | | | 2 | - |
| 2 | Daxili İşlər Nazirliyi | 517 | 517 | | | - | - |
| 3 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | - | - | - | - | - | 1 |
| 4 | Ədliyyə Nazirliyi | 277 | 277 | | | - | - |
| 5 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 186 | 187 | 1 | 1 | - | 1 |
| 6 | Fövqəladə Hallar Nazirliyi | - | - | - | - | - | 1 |
| 7 | Gənclər və İdman Nazirliyi (GPEA Mərkəzi) | 10 | 10 | = | = | = | 1 |
| 8 | Xarici İşlər Nazirliyi | - | - | - | - | - | - |
| 9 | İqtisadi İnkişaf Nazirliyi | 29 | 29 | | | | 1 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 4 | 4 | - | - | - | 1 |
| 11 | Müdafiə Sənayesi Nazirliyi | 36 | 36 | - | - | - | - |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | - | - | - | 34 | - | 1 |
| 13 | Nəqliyyat Nazirliyi | 17 | 17 | | - | - | 1 |
| 14 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 956 | 1086 | 130 | | - | - |
| 15 | Sənaye və Energetika Nazirliyi | - | - | - | - | - | 1 |
| 16 | Səhiyyə Nazirliyi | 26 | 26 | - | - | - | 1 |
| 17 | Təhsil Nazirliyi | 14 | 44 | 30 | - | - | 1 |
| 18 | Vergilər Nazirliyi | 30 | 30 | - | - | - | 1 |
| 19 | Ailə, Qadın və uşaq problemləri üzrə dövlət komitəsi | - | - | - | | - | - |
| 20 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | - | 3 | 3 | - | - | 1 |
| 21 | Əmlak Məsələləri Dövlət Komitəsi | 45 | 45 | | 1 | - | 1 |
| 22 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | - | - | - | - | - | 1 |
| 23 | Dövlət Şəhərsalma və Arxitektu- ra Komitəsi | 1 | 1 | - | - | - | 1 |
| 24 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin strukturları | 29 | 29 | - | - | - | - |
| 25 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | - | - | - | 1 |
| 26 | Dövlət Gömrük Komitəsi | - | - | - | - | - | 1 |
| 27 | Dövlət statistika Komitəsi | 5 | 5 | - | - | - | 1 |
| 28 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 7 | 7 | | - | - | 1 |
| 29 | Qaçqınların və Məcburi Köçkü nlərin İşləri üzrə Dövlət Komitəsi | - | - | - | - | - | 20 |
| 30 | Prezidenti yanında Dövlət Qulluğu Komitəsi | 12 | 12 | - | - | - | - |
| 31 | Yerli Rayon İcra Hakimiyyəti | 6 | 6 | | | | |
| 32 | Milli Arxiv İdarəsi | - | - | - | - | - | - |
| 33 | Dövlət Sosial Müdafiə Fondu | 359 | 442 | | - | - | - |
| 34 | Dövlət Sərhəd Xidməti | - | - | - | - | - | 1 |
| 35 | Dövlət Miqrasiya Xidməti | 30 | 30 | - | - | - | 1 |
| 36 | Dövlət Baytarlıq Xidməti | - | 12 | 12 | | - | - |
| 37 | Müəllif Hüquqları Agentliyi | 2 | 2 | - | - | - | 1 |
| 38 | Satınalmalar üzrə Dövlət Agentliyi | 1 | 1 | - | - | - | 1 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 13 | 13 | - | - | - | 1 |
| 40 | Azərsu ASC | 17 | 17 | - | - | - | 1 |
| 41 | Bakıelektrikşəbəkə | - | - | - | - | - | 1 |
| 42 | Dövlət Neft Şirkəti | - | - | - | - | - | 1 |
| 43 | Dövlət Mülki Aviasiya Administrasiyası | 1 | 3 | 2 | - | - | 1 |
| 44 | Milli Depozit Mərkəzi | 7 | 7 | - | - | - | - |
| 45 | Tələbə qəbulu üzrə Dövlət Komissiyası | 20 | 20 | - | - | - | - |
| 46 | Yerli Bələdiyyələr üzrə | 52 | 52 | | | | |
| | **CƏMİ** | 2650 | 2971 | 178 | 36 | - | 49 |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## 20.11.2012 - 20.12.2012-ci il dövrü ərzində “Elektron hökumət” portalındakı elektron xidmətlərdən istifadə barədə məlumat

| № | Xidmət təchizatcısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Daxili İşlər Nazirliyi | 2 | 547 |
| 2 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 30 |
| 3 | Ədliyyə Nazirliyi | 3 | 919 |
| 4 | Vergilər Nazirliyi | 11 | 537 |
| 5 | İqtisadi İnkişaf Nazirliyi | 8 | 35 |
| 6 | Sənaye və Energetika Nazirliyi | 1 | 15 |
| 7 | Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi | 5 | 466 |
| 8 | Kənd Təsərrufatı Nazirliyi | 15 | 42 |
| 9 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 16 | 38 |
| 10 | Təhsil Nazirliyi | 3 | 479 |
| 11 | Səhiyyə Nazirliyi | 7 | 208 |
| 12 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 33 | 2743 |
| 13 | Gənclər və İdman Nazirliyi | 4 | 27 |
| 14 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 11 | 38 |
| 15 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 18 |
| 16 | Qacqınların və Məcburi Kockunlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 53 |
| 17 | Dövlət Gömrük Komitəsi | 4 | 178 |
| 18 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 200 |
| 19 | Dövlət Statistika Komitəsi | 2 | 43 |
| 20 | Əmlak Məsələləri Dövlət Komitəsi | 3 | 135 |
| 21 | Dövlət Sosial Müdafiə Fondu | 8 | 938 |
| 22 | Müəllif Hüquqları Agentliyi | 6 | 43 |
| 23 | Dövlət Dəniz Administrasiyası | 5 | 63 |
| 24 | Dövlət Sərhəd Xidməti | 2 | 43 |
| 25 | Milli Arxiv İdarəsi | 2 | 22 |
| 26 | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 1 | 5 |
| 27 | "AzərEnerji" ASC | 2 | 5 |
| 28 | "AzərSu" ASC | 1 | 87 |
| CƏMİ | | 174 | 7957 |

* Cədvəldəki ardıcılıq Nazirlər Kabinetinin struktur sıralanması (http://cabmin.gov.az) üzrədir.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 oktyabr 2011-ci il tarixli 191 nömrəli Qərarında təsdiq olunmuş e-xidmətlərin "Elektron hökümət" portalına qoşulma vəziyyəti barədə

## MƏLUMAT

25.12.2012

| Sıra № | Dövlət qurumunun adı | Təsdiq olunmuş e-xidmətlərin sayı | "Elektron hökumət" portalında yerləşdirilib | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarındakı e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilib |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 0 | 0 | 4 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 23 | 22 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 3 | 3 | 26 | 22 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 4 | 4 | 4 | 4 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 19 | 6 |
| 6 | İqtisadi İnkisaf Nazirliyi | 7 | 5 | 8 | 14 | 6 |
| 7 | Vergilər Nazirliyi | 57 | 4 | 11 | 57 | 56 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 1 | 1 | 7 | 7 |
| 9 | Əmək və Əhalinin Sosial Mudafiəsi Nazirliyi | 12 | 2 | 5 | 12 | 12 |
| 10 | Kənd Təsərrufatı Nazirliyi | 12 | 10 | 15 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 12 | 16 | 10 | 6 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 7 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 11 | 3 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 7 | 7 | 9 | 8 |
| 15 | Rabitə və Informasiya Texnologiyaları Nazirliyi | 16 | 10 | 33 | 27 | 17 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 0 | 0 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 3 | 4 | 6 | 6 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 2 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 5 | 11 | 12 | 5 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 2 | 1 |
| 21 | Qacqınların və Məcburi Köçkünlərin İşləri üzrü Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 1 | 4 | 9 | 6 |
| 23 | Dövlət Torpaq və Xərtitəçıkmə Komitəsi | 9 | 9 | 13 | 9 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 0 | 3 | 3 | 3 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 1 | 1 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 1 | 2 | 5 | 4 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 5 | 5 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 0 | 0 | 2 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 0 | 0 | 14 | 9 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 8 | 8 | 11 | 8 |
| 31 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 0 | 1 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 2 | 3 | 14 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 0 | 0 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Cağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 0 | 0 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 6 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 4 | 5 | 5 | 5 |
| 40 | Milli Arxiv Idarəsi | 2 | 2 | 2 | 0 | 0 |
| | **CƏMİ:** | **417** | **109** | **179** | **393** | **306** |

## 25.12.2012-ci il tarixinə qədər Milli Sertifikat Xidmətləri Mərkəzi tərəfindən verilmiş e-imza sertifikatları ilə Elektron Hökumət Mərkəzinə müraciət edənlərin sayı haqqında

## STATİSTİK HESABAT

| | |
|---|---|
| HÜQUQİ VƏ FİZİKİ ŞƏXSLƏR | 203 |
| VƏTƏNDAŞLAR | 2125 |
| CƏMİ | 2328 |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

**Vətəndaşlar "Elektron Hökumət" portalında qeydiyyatdan keçmədən aşağıdakı elektron xidmətlərdən yararlana biləcəklər.**

## "Elektron Hökümət" portalında autentifikasiya tələb olunmayan e-xidmətlər

- **Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**

- Küçə adına görə küçələr və kodlarının tapılması
- Poçt indeksinə görə küçənin adının tapılması
- Rabitə xidmət haqlarının internet vasitəsilə ödənilməsi
- Küçə koduna görə küçələrin adlarının tapılması

**Səhiyyə Nazirliyi**

- İmmunoprofilaktika üzrə məlumat təqdim edilməsi
- Dərman vasitələri haqqında məlumat əldə edilməsi
- Tibb müəssisələri barədə elektron məlumat soraqçası

**VergilərNazirliyi**

- Hüquqi adın yoxlanılması
- Oxşar hüquqi adların axtarışı
- Vergi ödəyicisinin ətraflı axtarışı

**Dövlət Gömrük Komitəsi**

- Malın adına görə malların təsvirinin axtarışı
- Malın koduna görə malların təsvirinin axtarışı
- Nəqliyyatın idxalı üçün gömrük rüsumların hesablanması

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Məşğulluq Xidməti vasitəsilə iş axtarışı**

- Dövlət Məşğulluq Xidməti vasitəsilə iş axtarışı

**ƏdliyyəNazirliyi**

- Adın mənası

**"Azərenerji" ASC**

- Enerji haqlarının internet vasitəsiilə ödənilməsi

**"AzərSu" ASC**

- Su borcunun internet vasitəsilə ödənilməsi
- Su borcunun internet vasitəsilə öyrənilməsi

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası**

- TQDK-nın nəşrlərinin elektron versiyalarının satışı sistemi
- TQDK-nın virtual ödəmə kartlarının satışı (Goldenpay vasitəsilə)
- TQDK-nın virtual ödəmə kartlarının satışı (Netmoney vasitəsilə)






Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Dövlət qurumları tərəfindən elektron imzanın tətbiq olunduğu

## S A H Ə L Ə R

### Daxili İşlər Nazirliyi

- Elektron sənəd dövriyyəsi

### Vergilər Nazirliyi

- Hüquqi şəxslərin e-qeydiyyatı;
- Fərdi sahibkarların onlayn qeydiyatı

### Əmlak Məsələləri üzrə Dövlət Komitəsi

- Hərracların təşkili üzrə xidmətlər;

### Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi

- Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətlərin və sənədlərin qəbulu;
- Nömrə resurslarının ayrılması üçün müraciətin və sənədlərin qəbulu;
- Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən əşyaların dövriyyəsi üçün xüsusi icazənin verilməsi üçün müraciətlərin və sənədlərin qəbulu;
- İxrac nəzarətinə düşən mallar üzrə xüsusi icazənin verilməsi üçün müraciətlərin və sənədlərin qəbulu;
- Radiorabitə vasitələrinin qeydiyyatı üçün müraciətlərin və sənədlərin qəbulu;
- Telekommunuikasiya vasitələrinə və qurğularına uyğunluq sertifikatın verilməsi üçün müraciətlərin və sənədlərin qəbulu;
- Elektron xidmətlər reyestri;
- Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestri
- E-gov.az portalı




### Dövlət Sosial Müdafiə Fondu

- Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# Dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin reyestrlərinin istifadəyə verilməsi

## B A R Ə D Ə

Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarına uyğun olaraq, dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətlərin təkmilləşdirilməsi, genişləndirilməsi və şəffaflığın artırılması məqsədilə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) tərəfindən dövlət informasiya ehtiyatlarının reyestrinin, eləcə də fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatının (reyestrinin) aparılması üçün proqram təminatı hazırlanıb istifadəyə verilmişdir.

Reyestrlərin operatoru olaraq, dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatına alınması və ləğv edilməsi RİTN-ə həvalə edilmişdir və hal hazırda müvafiq dövlət qurumları, aidiyyəti hüquqi və fiziki şəxslərin malik olduğu informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin reyestlərə daxil edilməsi istiqamətində RİTN tərəfindən lazımi işlər görülür.

Qanunvericiliyə uyğun olaraq, yeni yaradılan, quruluşunda dəyişikliklər aparılan, fəaliyyəti dayandırılan informasiya ehtiyatları haqqında məlumatların Dövlət Reyestrinə daxil edilməsi və ya müvafiq düzəlişlərin edilməsi üçün lazımi sənədlər (müraciət ərizəsi və qeydiyyat kartı) müraciət edən tərəfindən 20 gündən gec olmayaraq Reyestrin operatoruna təqdim edilməlidir.

Həmçinin “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsinə qədər mövcud olan və Qanunun tələblərinə uyğun olaraq qeydiyyatı məcburi olan informasiya sistemləri dövlət qeydiyyatından keçirilməlidir.

İnformasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin reyestrlərdə qeydiyyata alınması üçün qurumlar elektron imza və ya RİTN tərəfindən təqdim olunan kod-parol vasitəsi ilə sistemə daxil olaraq lazımi məlumatları (müraciət ərizəsi, qeydiyyat kartı və s.) sistemə daxil edə bilərlər.

Əlaqə məlumatları:
tel: (012) 598-42-73,
faks: (012) 565-18-29,
e-poçt ünvanı: office@rabita.az,
internet ünvanı: www.e-gov.az
Məsul şəxs: İlqar Abdullayev

# Mobil autentifikasiya




## Dəyərli istifadəçilər!

Smartfon və digər tablet tipli mobil qurğulardan “Elektron Hökumət” portalına təhlükəsiz girişlərin təmin edilməsi üçün Sertifikat Xidmətləri Mərkəzi tərəfindən hal-hazırda işlər aparılır. 2013-cü ilin birinci rübündə vətəndaşlar mobil autentifikasiya xidmətlərindən yararlana biləcəklər və mobil platformalardan “Elektron hökumət” portalındakı xidmətlərdən istifadə edilməsi mümkün olacaqdır.

© 2012 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: (99-412) 565-18-20; 157
Fax: (99-412) 565-18-20
Email: office@rabita.az